# Mübarək Ramazan ayı davam edir

*Oruc tutmaq insan nəfsinin paklığı, eyiblərin və naqisliyin islah olunması, ağıl, iman və iradənin saflaşması üçündür. Oruc tutan insan bu ayın dua və ibadətləri ilə eyiblərdən saflığa, saflıqdan kamilliyə doğru gedir. Bu ay ruhun təzələnməsi, Allaha yaxınlaşması ayıdır.*

*Ramazan ayında nəfslə iman sanki savaş meydanına çıxır. Nəfs yeyib-içmək, pis vərdişlərini davam etdirmək istəyir. Inanclı insanlarda nəfs məğlub olur, dil yalandan, göz və könül haramdan uzaqlaşır. Bir sözlə oruclucluq insanlara öz iradələrini, dözümlülüyünü yoxlamaq imkanı verir. Orucluq təkcə ac qalmaqdan ibarət deyil. Ac qalmaq orucun şərtlərindən biridir. Oruc tutan adamın bütün vücudu-ürəyi, beyni, gözü, əlləri, qulağı və sair pak olmalıdır. Təkcə pislik etmək yox, pislik barədə düşünmək belə orucla uzlaşmır*

*Orucluq vaxtı gündüz yemək, içmək, papiros çəkmək olmaz. Bunlardan yalnız uşaqlar, xəstələr, hamilə qadınlar, döyüşçülər, əsirlikdə olanlar və səyyahlar azad olunurlar. Oruclu adam bəzək-düzəkdən kənar olmalı, ətirlənməməli, tütün, gül iyləməməli və orucu pozan digər hərəkətlərdən imtina etməlidir. Orucluq dövründə insan dünya ləzzətindən çəkinir, gündəlik fəaliyyətini davam etdirsə də, özünü Allaha ibadətə həsr edir, nəfsini təmiz saxlayır və bu vaxt şeytan onun qəlbinə yol tapa bilmir.*

*Döyüşdə və ya əsirlikdə olduğuna görə oruc tutmayanlar sonra münasib bir vaxtda onun əvəzini (qəzasını) tutmalı və ya fidyə verməlidirlər. Orucu qəsdən pozanlar isə onun əvəzini tutmaqla yanaşı, tövbə etməli və kəffarəsini ödəməlidirlər. Kəffarə isə 60 gün oruc tutmaq, yaxud 60 yoxsulu yedirtməkdir. 60 günlük kəffarə orucuna bir günlük qəza orucu da əlavə olunur.*

*Orucluğun başa çatdığı gün Fitr bayramı adlanır. Həmin gün bütün müsəlmanlar bir-birlərini təbrik edir, vəfat edənlərin məzarlarını ziyarət edir, ruhlarına dualar oxuyurlar. Bayram ərəfəsində hər kəs kasıblara öz himayəsində olanların sayına uyğun, təqribən 3 kq buğda, yaxud xurma, kişmiş və ya onların dəyəri miqdarında fitrə zəkatı verməlidir. Fitrə bayram namazına qədər verilə bilər. Ancaq bayramdan bir neçə gün öncə verilməsi daha məqbuldur. Bu il orucluq bayramının iyun ayının 26-na təsadüf edəcəyi gözlənilir.*

# Pensiya qanunvericiliyində dəyişən nədir?

*Son aylarda, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununa edilmiş dəyişikliklər əhalini ən çox maraqlandıran suallardan birinə çevrilmişdir. Odur ki, rayon ictimaiyyəti, xüsusilə də, aztəminatlı təbəqə arasında qeyd olunan dəyişikliklərə marağı nəzərə alaraq, bəzi suallara aydınlıq gətirmək qərarına gəldik.*

Bildiyimiz kimi, ölkə başçısı, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 10 mart tarixli 543-VQD nömrəli Qanununun tətbiqi barədə 2017-ci il 1 may tarixli 1352 saylı Fərman imzalamışdır. "Əmək pensiyaları haqqında" Qanuna edilmiş dəyişikliklərdə iki əsas məqam vətəndaşların daha çox marağına səbəb olmaqdadır. Belə ki Qanunun 7-ci maddəsində pensiya təyin olunmasının yaş həddinin kişilərdə hazırda nəzərdə tutulmuş 63-dən 65-ə, qadınlarda isə, 60-dan 65-dək artırılması nəzərdə tutulmuşdur. Bu proses 2017- ci ilin 1 iyul tarixindən başlanacaq və yaş həddi 65-ə çatanadək hər il 6 ay artırılacaq. Başqa sözlə, 1 iyul 2017-ci il tarixdən kişilər 63 yaş 6 ay, qadınlar isə 60 yaş 6 ay yaş həddinə çatdıqda, 1 iyul 2018-ci ildən kişilər 64 yaş, qadınlar 61 yaş həddinə çatdıqda və s. əmək pensiyası yaşına çatmış olacaqlar və bu proses həm kişilər, həm də qadınlar üçün 65 yaş həddinə çatanadək davam edəcək. Qanunda maraq doğuran digər mühüm məqam, pensiya təyin olunması üçün tələb olunan pensiya kapitalı ilə bağlıdır. 7-ci maddədə edilən dəyişikliyə əsasən, vətəndaşlar fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verdikdə sığorta stajından asılı olmayaraq, bu pensiya təminatına imkan vermədikdə isə azı 25 il sığota stajı olduqda və həmin maddədə qeyd olunun yaş həddinə çatdıqda əmək pensiyası almaq hüququ qazanır. Əmək pensiyasının minimum məbləği isə, Qanunun 6-cı maddəsinə əsasən 110,00 manat müəyyən olunmuşdur. Deməli, əmək pensiyası hüququnun yaranması üçün fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalı azı 15840 manat təşkil etməlidir ki, həmin məbləği 144-ə (gözlənilən pensiya ödənişi aylarının sayına) bölərək yaşa görə əmək pensiyası hesablandıqda minimum - 110,00 manat məbləğ alınsın. Buradan 2 sual yaranır. Birincisi: əgər tələb olunan minimum 15840 manat və ya daha yüksək pensiya kapitalı toplanmışdırsa, o zaman yaş həddindən asılı olmayaraq əmək pensiyası təyin oluna bilərmi? - Xeyr! Çünki, Qanunun 7-ci maddəsinə əsasən, hər iki şərt, həm pensiya yaşına çatmaq, həm də eyni zamanda qeyd olunan kapitalın olması tələb olunur. Şərtlərdən biri təmin edilmədikdə pensiya hüququ yaranmır. İkinci sual isə ondan ibarətdir ki, 1 yanvar 2006-cı ildən əvvəl fərdi uçot sistemi mövcud olmadığından, həmin dövr üzrə pensiya kapitalı hesablanırmı və əgər hesablanırsa, necə hesablanır? Bu sualın cavabı Qanunun 27-ci maddəsində öz əksini tapmışdır. Həmin maddəyə əsasən, 1 yanvar 2006-cı il tarixədək olan dövr üzrə də pensiya kapitalı hesablanır və bu zaman iş (sığorta) stajının hər ili 306 manata vurulmaqla 1 yanvar 2006-cı il vəziyyətinə şərti pensiya kapitalı müəyyən olunur ki, həmin məbləğ də sonrakı illərin inflyasiya indekslərinə uyğun olaraq artırılmaqla hazırkı səviyyəyə uyğunlaşdırılır. 1 yanvar 2006-cı ildən sonrakı dövrün inflyasiya indeksləri ardıcıl tətbiq olunduqda 1 yanvar 2017-ci il vəziyyətinə pensiya kapitalı 116,879 % - başqa ifadədə, təqribən 2,17 dəfə artırılmış olur.

Diqqət çəkən digər məqam Qanunun 20-ci maddəsinə edilmiş dəyişiklikdir. Belə ki, hazırda qüvvədə olan Qanuna görə pensiya yaşına çatmış və ya əlil olmuş (əlillik dərəcəsindən asılı olmayaraq) şəxsin dövlət qulluğuna xitam verildiyi halda, o qulluq stajına görə əlavə (dövlət qulluqçusu kimi pensiya) ala bilər. Yeni dəyişikliklərdə isə, bu hüquq yalnız pensiya yaşına çatmış və ya birinci dərəcə əlil olmuş şəxslərə verilir, yəni, ikinci və üçüncü dərəcə əlil olmuş şəxsə qulluq stajına görə əlavənin verilməsi nəzərdə tutulmamışdır.

Əhalini maraqlandıran suallarla bağlı gələcəkdə də tərəfimizdən silsilə xarakterli yazıların verilməsi nəzərdə tutulmuşdur.

**✍ Orxan İSGƏNDƏRLİ,**
**ƏƏSMN yanında DSMF Qəbələ Rayon Şöbəsinin əməkdaşı.**

## *Təsərrüfat xəbərləri*

# Çörəyi ver çörəkçiyə

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyri-neft sektorunun, xüsusilə daxili ehtiyacları təmin edən məhsullarla bərabər ixrac yönümlü məhsulların istehsalının artırılması barədə tapşırıqları ölkəmizdə, o cümlədən rayonumuzda uğurla yerinə yetirilir. Rayonumuzda istehsalı üçün geniş imkanlar olan və illər öncə çox böyük gəlir gətirən tütün qiymətli ixrac məhsuludur. Bunu nəzərə alaraq rayonda bu sahəyə diqqət gündən-günə artır. «Qəbələ» qəzetinin 25 may 2017-ci il tarixli sayında dərc olunmuş «Təsərrüfat xəbərləri» başlıqlı yazıda oxudum ki, iş adamı, fermer Hacıalılı kənd sakini Fikrət Məmmədov 60 hektar sahədə yüksək aqrotexniki qaydada tütün əkdirib və hazırda becərmə işləri gedir. Xəbər məni çox maraqlandırdı. Kolxozlar ləğv olunandan sonra bir fermerin 60 hektar sahədə tütün əkdirəcəyini ağlıma gətirmirdim. Buna görə də bu mənzərəni görmək üçün qeyd olunan sahəyə getdim.*

Fermer Fikrət müəllim də iş başında idi. Doğrusu gözlərimə inanmadım. Göz işlədikcə uzanan tütün sahəsində həyat bulaq kimi qaynayırdı. İlk görünüşdən məlum olurdu ki, becərmə yaxşı aparılır. Tütünçülərdən kimi suvarma işilə, kimi gübrələmə, kimi də yeni boy atmış tütün şitillərinin diblərinin boşaldılması ilə məşğul idi. Mən Fikrət müəllimdən tütün sahəsində işlərin belə yüksək səviyyədə təşkilinin sirlərini soruşduqda:—Yaxşı olar bir başa işin icraçılarından, briqadirlərdən elə sıravi işçilərdən soruşasınız—dedi.

Aldığım məlumatlar ürək açan oldu. Dövlət başçısının kənd təsərrüfatı məhsulları istehsalının artırılması barədə tapşırıqları və bu sahəyə göstərilən qayğı Fikrət Məmmədovu əkinçiliyin digər sahələri kimi, gəlirli və ixracyönümlü məhsul olan tütün əkininə də ruhlandırıb. Budur 60 hektar sahədə tütün əkini hazırdır. Ancaq bu zəhmət bahasına başa gəlib və hələ qarşıda görüləsi işlər çoxdur.

Birinci növbədə tütün əkini üçün daimi suvarma suyu lazım olduğundan 4 kilometr uzaqda yerləşən Mirzəbəyli çayından bura su çəkilib. Sonra cavanlarla yanaşı keçmiş təcrübəli tütünçülər də işə cəlb olunub. Dizaxlı kəndindəki keçmiş «Pravda» kolxozunun adsan qazanmış tütünçüsü Tənzilə Alışova burada fəaliyyət göstərən 5 briqadadan birinin rəhbəridir. Tənzilə xanım gəncliyini həsr etdiyi tütünçülüyə indi di cavanlıq şövqi ilə girişib. Ümumiyyətlə, tütün sahəsində qonşu kəndlərdən cəlb edilmiş 150-yə qədər işçi salışır. İşçilər üçün lazımi iş şəraiti yaradılıb. İş icraçısı Alıcan Bədirov da da təcrübəli təsərrüfatçıdır. Qeyd etdiyim kimi hazırda tutun sahələrində becərmə işləri aparılır. Bir neçə gündən sonra isə yarpaqların yığılmasına başlanacaqdır. Bunun üçün artıq hazırlıq işləri gedir. Bir sözlə burada gödüyüm mənzərə yadıma bir atalar sözünü saldı: «Çörəyi ver çörəkçiyə»—yəni onu bişirə bilənlərə, onun müqəddəsliyini başa düşənlərə.

Aldığım təəssürat belə oldu ki, Fikrət Məmmədov da onun işə cəlb etdiyi mütəxəssis və tütün ustaları da öz işini bilən və sevənlərdir. Bizə isə uğurlar arzulamaq qalır.

**✍ Cəlil KOMRADLI,**
**«Qəbələ»nin Hacıalılı zonası üzrə müxbir postunun rəhbəri.**

# Qəbələ 2017-ci ilin birinci rübündə

**(Əvvəli ötən saylarımızda).**

**Təhsil**

Rayonda 4 ibtidai, 11 əsas və 53 tam orta məktəb fəaliyyət göstərir.

Cari dərs ilində bu ümumtəhsil məktəblərində 16998 nəfər şagird təhsil alır. Şagirdlərin təlim-tərbiyyəsi ilə 2620 müəllim məşğul olur. Məktəblərdə şagirdlər 485 kompüterdən istifadə edir.

Mövcud 22 məktəbə qədər uşaq müəssisəsində uşaqların sayı 780 nəfərdir.

Peşə təhsili məktəbində isə 408 nəfər gənc 8 ixtisas üzrə təhsil alır. Bu gənclərin təlim tərbiyəsi ilə 15 nəfər müəllim və 13 nəfər usta məşğul olur.

**Səhiyyə**

2017-ci ilin 1 aprel vəziyyətinə rayonda 330 çarpayılıq 6 xəstəxana, 36 tibb və feldşer-mama məntəqəsi, 9 ambulator müəssisəsi fəaliyyət göstərir.

Bu müəssisələrində 178 həkim, 461 orta tibb işçisi çalışır. Əhalinin hər 10000 nəfərinə 18,8 həkim, 48,6 nəfər orta tibb işçisi düşür.

**Nəqliyyat və rabitə**

Rüb ərzində avtomobil nəqliyyatı ilə 291 min ton, əvvəlki illə müqayisədə 23 min və ya 8,5 faiz çox yük, 1926 min nəfər, keçən illə müqayisədə 1,7 faiz və ya 32 min çox sərnişin daşınmışdır.

103 nəfər işçinin çalışdığı rabitə qovşağı tərəfindən 256,2 min manatlıq rabitə xidməti göstərilmişdir.

**Əmək haqqı, məşğulluq və işsizlik**

İlin birinci rübündə rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq əmək haqqı 268.2 manat təşkil etmiş, 2016-ci ilin həmin dövrünə nisbətən 3,1 faiz azalmışdır.

Rüb ərzində müəssisə və təşkilatlarda işçilərə 1934 manatlıq sosial xarakterli ödəmələr verilmişdir.

Rayon əmək və məşğulluq mərkəzində 1 aprel 2017-ci il tarixə 675 nəfər işsiz vətandaş qeydiyyata alınmışdır. Qeydiyyata alınanlardan 90 nəfəri qadınlardır. Mərkəz tərəfindən işsiz kimi müraciət edən vətəndaşların öz arzusuna əsasən 291 nəfəri müxtəlif peşələr üzrə işə düzəldilmişdir. Onlardan 37 nəfəri qadındır.

1 aprel vəziyyətinə məşğul əhalinin sayı 56799 nəfər təşkil etmişdir. Məşğul əhalinin 11285 nəfəri muzdla işləyənlərdir.

Məşğul əhalinin 80.1 faizi və ya 45514 nəfəri muzdsuz işləyənlərdir. Muzdsuz işləyənlərin 38232 nəfəri və yaxud 84,0 faizi kəndli təsərrüfatlarda, 4,6 faizi yaxud 2093 nəfəri fiziki şəxslər, yerdə qalan 5189 nəfəri və ya 11,4 faizi isə digər sahələrdə çalışanlardır.

**✍ Ayaz İSKƏNDƏROV,**
**rayon statistika idarəsinin rəisi.**